# İDMAN YARIŞLARI

## 2021-2022 tədris ili




**2021-ci ilin dekabrın 11-18-də** ATU-nun 90 illik yubileyi"nə həsr olunmuş ATU-nun Rektoru ilə razılaşdırılmış Əsasnamə əsasında fakültələrarası idman yarışları keçirilmişdir. Basketbol, voleybol, stolüstü tennis, badminton, futzal və şahmat növləri üzrə keçirilən yarışlara ATU-nun bütün fakültələrindən həvəskar tələbələr və rezidentlər qatılıb. Keçirilən yarışlar universitetin 6 fakültəsindən seçilmiş 95 iştirakçı arasında baş tutub. Yarışların sonunda fakültə dekanlarının da iştirakı ilə mükafatlandırma mərasimi keçirilib. Qalib olan tələbə idmançılar Rektor tərəfindən verilən medal, diplom və kuboklarla təltif olunmuşlar.





**30 yanvar 2022-ci il tarixində** "Gənclər günü"nə həsr olunmuş oğlanlar və qızlar arasında Şahmat turniri keçirilmişdir. Gənclər Gününə həsr olunmuş bu yarışın qalibləri "Bədən tərbiyəsi və idman günü"nə həsr olunmuş ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında martın 5-6-da keçiriləcək şahmat yarışında iştirak etmək üçün lisenziya qazanıblar. Qalib olan tələbə idmançılar "Təbib" idman klubunun medal və diplomu ilə təltif olunmuşlar.



**26–28 fevral 2022-ci il** tarixlərində Xocalı soyqırımının 30-cu ildönümü ilə bağlı Bakı şəhər Gənclər və İdman Baş İdarəsinin təşkilatçılığı ilə ATU-nun Tədris İdman Kompleksində badminton və şahmat üzrə turnir keçirilib. BŞGİBİ-nin baş məsləhətçisi Cəlil Əlizadə və “Təbib” idman klubunun sədri Qələndər Aslanov açılış mərasimində çıxış edərək tələbələrə Azərbaycan xalqının başına gətirilən Xocalı soyqırımı haqqında məlumat verib və bildirib ki, belə idman yarışları gənclərdə özünəgüvən hissini daha da gücləndirir. Yarışın sonunda qalib olan tələbə idmançılar “Təbib” idman klubunun medal və diplomu ilə təltif olunublar.





**05-06 mart 2022-ci il** tarixlərində Azərbaycan Tibb Universitetinin Tədris İdman Kompleksində” 5 mart Bədən Tərbiyəsi və İdman Günü”nə həsr olunmuş yarışlar keçirilib. Nəsimi rayonunda yerləşən ali təhsil müəssisələrinin tələbələri idmanın futzal, badminton, stolüstü tennis və şahmat növləri üzrə ümumilikdə 175 tələbəsi öz gücünü sınayıb. Yarışlardan öncə şəhidlərimizin xatirəsi anılıb və ATU-nun şəhid olmuş məzunlarının şərəfinə hazırlanmış bannerin önünə güllər düzülüb. Qalib olan tələbə idmançılar “Təbib” idman klubu və Nəsimi rayon Gənclər və İdman İdarəsi tərəfindən verilən medal, diplom və kuboklarla təltif olunublar.





**17 mart 2022-ci** il tələbələr arasında "Novruz bayramı"na həsr olunmuş Stolüstü tennis turniri keçirilib. Turnirdə Stolüstü tennis federasiyasının baş katibi Könül Mikayılova iştirak edib və tələbələrə tennis idman növünün inkişaf etdirilməsində və belə yarışların tez-tez ATU-da keçirilməsinə görə universitet rəhbərliyinə təşəkkürünü bildirib, iştirakçılara uğurlar arzulayıb. Yarışın sonunda qalib olan tələbə idmançılar "Təbib" idman klubunun medal və diplomları təltif olunublar.

Bakı şəhər Gənclər və İdman Baş İdarəsinin və "Təbib" idman klubunun təşkilatçılığı ilə **2022-ci il aprelin 16-sı** Aprel şəhidlərinin xatirəsinə həsr olunmuş tələbələr arasında badminton turniri keçirilib. Qaliblər Bakı şəhər Gənclər və İdman Baş İdarəsinin diplom və medalları ilə təltif olunublar.





**15 may 2022-ci il** tarixində Heydər Əliyev Fondunun təşəbbüsü ilə "Küləyə qalib gəl" şüarı altında keçirilən Bakı marafonu - 2022 beynəlxalq yarışlarında klubun məşqçi-müəllimləri ATU tələbələrinin bu yarışlarda iştirkaını təmin etmək məqsədilə koordinator olaraq cəlb edilmiş, iştirakçı tələbələrə dəstək olmuşlar. Ümumilikdə 15 minə yaxın iştirakçı arasında ATU tələbələrindən 94 nəfər 21 km-lik məsafəni qət edərək finişə çatmış, onlardan 25 nəferi ilk min nəfər içərisində olmaqla Heydər Əliyev Fondu tərəfindən verilən medal və sertifikata layiq görülmüşlər.



**2021/2022-ci** tədris ilinin yekunu olaraq **28-31 may tarixlərində** Azərbaycan Tibb Universitetinin Rektoru ilə razılaşdırılmış Əsasnamə əsasında, Nəsimi rayon Gənclər və İdman İdarəsi və "Təbib" idman klubunun birgə təşkilatçılığı ilə ali təhsil müəssisələrinin tələbələri arasında "Zəfər festivalı" adlı 7 idman növündən turnir təşkil olunmuşdur. Turnirə 10 ali təhsil müəssisəsindən 290 tələbə idmançı qatılmışdır. 4 gün davam edən yarışların qalibləri müəyyən olunduqdan sonra, 31 may tarixində Tədris İdman Kompleksinin həyətində açıq havada turnirin təntənəli bağlanış və təltifetmə mərasimi keçirilmişdir. Qalib olan universitin tələbələrinə medallar, diplomlar və kuboklar təqdim olunmuşdur.



## 2022-2023-cü tədris ili

**5 oktyabr 2022**-ci il tarixində ATU-nun idman kompleksində "Müəllimlər günü"nə həsr olunmuş şahmat turniri keçirilib. Universitetin professor-müəllim heyəti arasında



keçirilən yarışa ayrı-ayrı kafedraların əməkdaşları qatılıblar. Kişilərdən ibarət komandada 20 nəfər, qadınlardan ibarət komandada isə 8 nəfər mübarizə aparıb. Sonda qaliblər "Təbib" idman klubunun medal və diplomları ilə təltif ediliblər. Birinci yerin sahiblərinə xüsusi hədiyyələr də təqdim olunub.



**31 oktyabr - 02 noyabr tarixində** Klubda "Zəfər günü"nə həsr olunmuş tələbələr arasında Futzal, Badminton və Stolüstü tennis yarışları keçirilmişdir. Yarışları ATU-nun prorektorları professor Sabir Əliyev, dosent Zülfüqar Musabəyov, Tağı Əhmədov və Nəsimi rayon İcra

Hakimiyyətinin başçısı Asif Əsgərov izləmişlər.Yarışların sonunda qaliblər “Təbib” idman klubunun medal və diplomları ilə təltif olunublar.



**Noyabrın 19-da** “Təbib” idman klubunun və Nəsimi rayon Gənclər və İdman idarəsinin birgə təşkilatçılığı ilə ilk dəfə pilot layihə olan hərbi-idman yarışları keçirilib. Yarışlarda HTF-nin 110 tələbəsi iştirak edib. Bu yarışlarda idman normativləri ilə yanaşı, yaralı əsgərlərə ilkin tibbi yardımın göstərilməsi üçün nəzəri və təcrübi test sualları verilib. Maraqlı keçən yarışın qalibləri “Təbib” idman klubunun medal və diplomları ilə təltif olunublar.




**Dekabrın 10-da** Tədris İdman Kompleksində tələbələr arasında ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş basketbol və şahmat turnirləri keçirilib. Basketbol yarışlarında ATU-nun 5 fakültəsindən 20, Şahmat turnirində isə 26 tələbə



iştirak edib. Sonda qaliblər Nəsimi rayon Gənclər və İdman İdarəsinin diplom, medal və kuboku ilə mükafatlandırılıblar.

**Dekabrın 13-dən** ATU tələbələri arasında ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edilmiş futzal turnirinə start verilib. ATU-nun “Təbib” idman




klubu və Nəsimi rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə keçirilən turnir dekabrın 23-də final yarışı ilə yekunlaşıb. Qalib komandaların üzvlərinə Nəsimi Rayon Gənclər və İdman İdarəsi ilə “Təbib” idman klubunun birgə hazırladığı xüsusi diplomlar və medallar təqdim edilib.



**Dekabrın 27-də** Tədris İdman Kompleksində Ümummilli lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş stolüstü tennis üzrə qadınlar və kişilər arasında turnir keçirilib. Turnirdə 7 qız, 17 oğlan tələbə idmançı iştirak edib.Nəsimi rayon Gənclər və idman idarəsinin rəisi Şahmar Tağıyev tədbirdə çıxış edərək, ulu öndər Heydər Əliyevin idmana və idmançılara

hər zaman verdiyi dəyərdən və ölkə idmanının inkişafından danışıb. Sonda qaliblər Nəsimi rayon Gənclər və İdman İdarəsinin və “Təbib” idman klubunun diplom və medalları ilə təltif olunublar.

**2023-cü ilin fevral ayında** “Heydər Əliyev ili” çərçivəsində “Gənclər günü”nə həsr olunmuş tələbələr arasında Stolüstü tennis turniri keçirilmişdir. Turnirində 12 oğlan və 6 qız tələbə iştirak edib. Sonda qaliblər Nəsimi rayon Gənclər və İdman İdarəsinin diplom və medalları ilə mükafatlandırılıblar.




**Fevralın 8-9-da** ATU-nun idman kompleksində “Heydər Əliyev İli”nə həsr olunmuş şahmat turniri keçirilib. Azərbaycan Tibb Universitetinin professor-müəllim heyəti arasında keçirilən yarışa kişilərdən və qadınlardan ibarət komandalar qatılıb. Digər ali təhsil müəssisələrindən olan əməkdaşların da iştirak etdiyi turnirin sonunda qaliblər Bakı şəhər Gənclər və İdman İdarəsinin medal və diplomları ilə təltif ediliblər. Birinci yerin sahiblərinə “Təbib” idman klubunun xüsusi kuboku da təqdim olunub.



**25 fevral 2023-cü il** tarixində Mərkəzi şahmat klubunda Milli Qəhrəman Albert Aqarunov adına Chess Master Şahmat klubunun təşkilatçılığı ilə təşkil olunan “Dostluq Kuboku-2023” beynəlxalq reytinqli şahmat turniri keçirilib. Turnirdə 6 komanda iştirak edirdi. Hər komandanın tərkibi 5 nəfərdən ibarət idi. Tibb Universiteti yarışda 2 komanda - “Təbib” və “Loğman” komandaları ilə təmsil olunurdu. Yarışın sonunda “Təbib” komandamız ümumi nəticələrə görə 1-ci yerə çıxaraq medal və diplomlarla mükafatlandırıldılar.






**Martın 16-17-də** Azərbaycan Respublikası Gənclər və İdman, Elm və Təhsil nazirlikləri və “Gənclik” Tələbə İdman Cəmiyyətinin birgə təşkilatçılığı ilə ali təhsil müəssisələri arasında Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş Badminton üzrə XV Respublika Universiadası keçirilib. Sonda universitetimizin komandası qalib gələrək I yeri tutub və komandanın hər bir iştirakçısına və rəhbərinə “Gənclik” Tələbə İdman Cəmiyyətinin diplom və medalı təqdim olunub.

**Aprelin 1-də** Tədris İdman Kompleksində karate turniri keçirilib. Turnirdə iştirak edən ATU tələbələrindən qızlar arasında Raminə İsxanova, İlhamə Namazova, Roshanak Moghanloo, Mahsa Palar, Negin Mardaneh, oğlanlar arasında İsmayıl Məhərrəmli, Səfər Əliyev, Fuad Haqverdiyev, Məhəmməd Quluzadə, Məsim Cəfərov müxtəlif çəki dərəcələrində qalib olmaqla "Təbib" idman klubunun medal və diplomları ilə təltif olunublar. Bunlarla yanaşı idman klubunun sədri beynəlxalq dərəcəli hakim Qələndər Aslanov tərəfindən hakimlər və tibb personalı üçün seminar da təşkil olunub.



**2023-cü ilin aprel ayında** Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi və Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının birgə təşkil etdiyi ali və orta



ixtisas təhsili müəssisələri arasında Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş futzal yarışları keçirilmişdir. Bu yarışlarda ölkənin 30-dan çox ali və orta ixtisas təhsili müəssisəsinin tələbələri iştirak etmişdir. Yarışların keçirilməsi ölkə üzrə müxtəlif regionlara bölünmüş və bir qismi də ATU-nun Tədris İdman Kompleksində keçirilmişdir. ATU-nun yığma komandası bu yarışlarda yalnız 1/8 final mərhələsinə qədər irəliləyə bilmişdir. Yarışlar bitdikdən sonra Bakı İdman Oyunları Sarayında təntənəli bağlanış mərasimi keçirilmişdir. Azərbaycan Tibb Universitetinin "Təbib" idman klubunun sədri Qələndər Aslanov yarışların keçirilməsində və təşkilati işlərə yaxından köməkliyinə görə Təhsil Nazirinin müavini Firudin Qurbanov tərəfindən Təşəkkürnamə ilə təltif olunmuşdur.

**2023-cü ilin mart və aprel aylarında** Azərbaycan Respublikası Gənclər və İdman, Elm və Təhsil Nazirlikləri və "Gənclik" Tələbə





İdman Cəmiyyətinin birgə təşkil etdiyi Ali Təhsil Müəssisələri arasında

Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş kişilər və qadınlar arasında Şahmat, Dama, Voleybol,





Badminton və Stolüstü tennis yarışları keçirilmişdir. Bu yarışlarda ölkənin 25-dən çox ali təhsil müəssisəsi iştirak etmişdir.
ATU-nun yığma komandası bu yarışlarda rəqiblərinə qalib gələrək ali təhsil müəssisələri arasında keçirilən Universiadanın qalibi olmuşdur.

**07 may 2023-cü il tarixində** Bakının dənizkənarı bulvarında Heydər Əliyev fondunun təşkilatçılığı ilə “Küləyə qalib gəl” şüarı altında beynəlxalq Bakı marafonu keçirilmişdir. Bu marafonda ATU-nun 232 tələbəsi iştirak etmişdir. Ümumilikdə 19.800 marafon iştirakçısı arasında ATU-nun 32 nəfər tələbəsi 21 km.lik məsafəni ilk minlikdə qaçaraq, Heydər Əliyev Fondu tərəfindən medal və sertifikatlara layiq görülüblər.



**2023/2024-cü tədris ili**

**2023-cü ilin 14 oktyabrında** Tədris İdman Kompleksində Bakı Şəhər Gənclər və İdman İdarəsinin (BŞGİİ) Nəsimi rayon sektoru və "Təbib" idman klubunun təşkilatçılığı ilə tələbələr arasında 18 oktyabr - Müstəqilliyin Bərpası Gününə həsr olunmuş şahmat turniri keçirilib. Turnirdə 25 oğlan və 5 qız olmaqla, 30 şahmatçı tələbə iştirak edib. Turnirin bağlanış mərasimində BŞGİİ Nəsimi rayon sektorunun müdiri Yusif Babanlı və "Təbib" idman klubunun sədri Qələndər Aslanov müstəqilliyimizin bərpası, tarixi və Zəfər günü barədə çıxış ediblər. Sonda qaliblərə BŞGİİ-nin diplom və medalları təqdim olunub.




**Oktyabrın 7-dən** başlayaraq Tədris İdman Kompleksində ATU-nun əcnəbi tələbələri arasında futzal yarışlarına başlanıb. 4 həftə davam edən yarışların final mərhələsi **28 oktyabrda** yekunlaşıb. Yarışların bağlanış mərasimində çıxış edən ATU-nun xarici tələbələrlə iş üzrə dekanı Natiq Bayramov, Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri Qoşqar İsmayılov və Nəsimi rayon gənclər və idman sektorunun baş məsləhətçisi Sirac Axundov tələbələrə göstərilən diqqət və qayğıya görə "Təbib" idman klubunun sədrinə təşəkkürlərini bildirdilər və tələbələrə uğurlar arzuladılar. Sonda klubun sədri Qələndər Aslanov əcnəbi tələbələr üçün təşkil olunan belə yarışların digər idman növlərində də davam etdiriləcəyini bildirdi və qaliblərə qonaqlarla birgə Bakı Şəhər Gənclər və İdman İdarəsinin medal, diplom və kuboklarını təqdim etdilər.








**Oktyabrın 28-də** Tədris İdman Kompleksində Zəfər Gününə həsr olunmuş ali təhsil müəssisələrinin tələbələri arasında açıq şahmat turniri keçirilib. Sonda iştirakçı komandalara “Təbib” idman klubu adından təşəkkürnamələr,Bakı Şəhər Gənclər və İdman İdarəsi adından qaliblərə medal,diplom və kuboklar təqdim olunub.





Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edilmiş ali təhsil müəssisələrinin tələbələri arasında XV Respublika Universiadasına yekun vurulub. Azərbaycan Memarlıq və İnşaat Universitetində kişilər arasında keçirilən yunan-roma güləşi üzrə yarışlarda universitetimizi 5 tələbə güləşçi təmsil edib.





**Dekabrın 2-də** Memarlıq və İnşaat Universitetinin idman kompleksində cüdo idman növü üzrə ali təhsil müəssisələri arasında XV Respublika Universiadası keçirilib. Azərbaycan Tibb Universiteti də daxil olmaqla yarışa altı universitetdən 70-dən çox tələbə cüdoçu qatılıb.

**Dekabrın 9-da** ATU-nun "Təbib" idman klubunda əcnəbi tələbələrin şahmat turniri keçirilib. Turnirdə universitetin müxtəlif fakütələrindən 24 tələbə iştirak edib.



Sonra əcnəbi tələbələrlə iş üzrə "SƏS" təşkilatının sədri, rezident Vafa Mohamed çıxış edərək ATU-da əcnəbi tələbələrə göstərilən qayğıya görə universitet rəhbərliyinə tələbələr adından dərin təşəkkürünü bildirib. Sonda qaliblər "Təbib" idman klubunun medal və diplomları ilə təltif olunub.

**18 noyabr - 9 dekabr tarixlərində** ATU-nun Tələbə Həmkaralar İttifaqı Komitəsi ilə razılaşdırılmış əsasnaməyə uyğun olaraq "Təbib" idman klubunun təşkilatçılığı ilə futzal yarışları keçirilib.



Yarışların bağlanış mərasimində ATU-nun THİK sədri Qoşqar İsmayılov, Hərbi Tibb Fakültəsinin zabitləri və "Təbib" idman klubunun sədri Qələndər Aslanov Ümummilli Lider Heydər Əliyevin ölkə idmanının inkişafındakı misilsiz xidmətlərindən, Dövlətimizin idmana və idmançılara qayğısından danışıb və tələbələri təbrik ediblər. Sonda qaliblər medal, diplom və kubokla təltif olunublar. Kursant Zamil Əliyev oyunlarda "Ən Çox Qol Vuran" nominasiyası və Fəxri Diplomla təltif olunub.



Ali təhsil müəssisələri arasında keçirilmiş idman yarışlarının qalibi olan Azərbaycan Tibb Universiteti tələbələrinin mükafatlandırma mərasimi keçirilib. Mərasimdə Nəsimi rayon İcra Hakimiyyətinin nümayəndələri, rayon Gənclər və idman sektorunun əməkdaşları və tələbələr iştirak ediblər.



Tədbirin sonunda ATU-nun prorektoru Tağı Əhmədov, o cümlədən Yusif Babanlı və Gülarə Verdiyeva qaliblərə mükafatları təqdim edib, idmançı tələbələrimizlə xatirə şəkli çəkdiriblər.

**1-4 mart 2024-cü il** tarixlərində ali təhsil müəssisələri arasında Universiada keçirilib. Yarışlarda tələbələrimiz şahmat üzrə yalnız İdman Akademiyasının tələbələrinə məğlub olaraq 2-ci yeri tutdular.



Gənclər və İdman Nazirliyinin və Alpinizm Federasiyasının təşkilatçılığı ilə 5 mart bədən tərbiyəsi və idman gününə həsr olunmuş “idman dırmanması” yarışı keçirilib. Yarışda Ali Hərbi Məktəbin kursantları da iştirak edib. Kursantlar yüksək nəticələr göstərsələr də komandaları əsasnaməyə uyğun olmadığı üçün ümumi xal hesabında ATU komandası 1-ci yerə layiq görüldü.

**May ayının 5-i** Heydər Əliyev Fondunun təşəbbüsü ilə Bakının dənizkənarı bulvarında “Bakı Marafonu 2024” beynəlxalq tədbiri keçirilib. “Küləyə qalib gəl” şüarı altında keçirilən yarışa 18 mindən çox iştirakçı qatılıb..



Marafonda medallar qazanan yerli tələbələrimizlə yanaşı, əcnəbi tələbələrimiz də çoxluq təşkil edib. Onlardan Türkiyə, Tükmənistan, İordaniya, Nigeriya, Hindistan, İran, Suriya, İraq, Zambiya, Uqanda, Pakistan, Fələstin vətəndaşları olan tələbələrimizi misal göstərmək olar.



Marafonda “Təbib” idman klubunun məşqçi-müəllimləri ilə yanaşı Stomatologiya fakültəsinin dekanı Elmira Əliyevanın başçılığı ilə dekan müavini və akademik məsləhətçilərin yürüşdən əvvəl tələbələrə mənəvi dəstəyi də marafonda iştirak edən tələbələrimizə xüsusi ruh yüksəkliyi verib.

**Mayın 27-də** Azərbaycan Tibb Universitetinin Tədris İdman Kompleksində Nəsimi Rayon İcra Hakimiyyəti, Azərbaycan Tibb Unniversiteti, Nəsimi rayon Gənclər və İdman İdarəsi və ATU-nun “Təbib” İdman Klubunun birgə təşkilatçılığı ilə ali təhsil müəssisələrinin tələbələri arasında “Zəfər festivalı – 2” adlı idman yarışlarının təltif olunma mərasimi keçirilib. Tədbirdə Milli Məclisin vitse-spikeri, Gənclər və idman



komitəsinin sədri Adil Əliyev, Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov, Azərbaycan Tibb Universitetinin rektoru Gəray Gəraybəyli, professor-müəllim heyəti və tələbələri, “Təbib” idman klubunun sədri Qələndər Aslanov, YAP Nəsimi rayon təşkilatının sədri Azər Süleymanov, "Gənclik” Tələbə İdman Cəmiyyətinin və Nəsimi rayon Gənclər və İdman İdarəsinin təmsilçiləri, müxtəlif idman qurumlarının nümayəndələri iştirak ediblər.

Xatırladaq ki, ATU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin də yaxından dəstəyi ilə mayın 4-dən 25-dək keçirilən idman yarışlarında 22 ali təhsil müəssisəsinin komandaları iştirak ediblər. İdmançılar stolüstü tennis, badminton, şahmat, futzal, qol güləşi, voleybol (oğlanlar), voleybol (qızlar) və digər idman növləri üzrə öz güclərini sınayıblar.

“Zəfər Festivalı – 1”-də olduğu kimi “Zəfər Festivalı – 2”-də də Azərbaycan Tibb Universitetinin komandaları öz liderliyini qoruya bilib. Festivalın təntənəli bağlanış mərasimində qaliblər kubok, diplom və medallarla təltif olunublar.

## 2024/2025-ci tədris ili

**17 oktyabr 2024-cü** il tarixində Azərbaycan Tibb Universitetinin idman kompleksində Bakı şəhəri Gənclər və İdman İdarəsinin və “Təbib” idman klubunun birgə razılığı ilə tələbə oğlan və qızlar arasında “8 noyabr Zəfər günü”nə həsr olunmuş şahmat yarışı keçirildi.

**Oktyabrın 30-da** Azərbaycan Tibb Universitetinin Tədris İdman Kompleksində Baki şəhər Gənclər və İdman İdarəsi və ATU-nun “Təbib” idman klubunun birgə təşkilatçılığı ilə idmanın şahmat, badminton və futzal növləri üzrə “8 noyabr Zəfər Günü”nə həsr edilmiş yarışların qaliblərini mükafatlandırma mərasimi keçirilib.



Nəzərinizə çatdıraq ki, şahmat üzrə yarışda 40 nəfər, badminton üzrə yarışda 44 əcnəbi tələbə, futzal yrışlarında isə 20 komanda mübarizə aparırdı.

Tədbirin sonunda idmanın şahmat, badminton növləri üzrə fərdi qaydada I, II və III yeri tutan tələbələrə diplomlar və medallar təqdim olunub. Futzal üzrə komanda yarışında isə Stomatologiya fakültəsinin komandası I, Hərbi tibb fakültəsinin komandası II və II Müalicə-profilakitikası fakültəsinin komandası III yerə layiq görülüb, qalib komandalar kuboklara mükafatlandırılıb.

**Noyabrın 3-də** Bakıda “Qürurla irəli” şüarı altında “IV Qələbə qaçışı” xeyriyyə tədbiri təşkil edilib**.** Gənclər və İdman Nazirliyi, Bakı Şəhər Halqası Əməliyyat Şirkəti və Azərbaycan Atletika Federasiyasının birgə təşkilatçılığı ilə keçirilən xeyriyyə tədbiri Azərbaycanın Vətən müharibəsində qazandığı möhtəşəm Zəfərin dördüncü ildönümünə həsr olunub.




“Qələbə qaçışı”nın iştirakçıları Dənizkənarı Milli Parkda, “Yeddi gözəl” fəvvarəsinin yanından start götürüb, 10 km məsafəni qət edərək eyni məkanda finişə çatıblar. İştirakçılarımızın hamısı 10 km məsafəni qət edərək sertifikat və medallarla təltif olunub.

**14 dekabr 2024-cü** il tarixində Azərbaycan Tibb Universitetinin Tədris İdman kompleksində Bakı şəhər Gənclər və İdman İdarəsi və “Təbib” idman klubunun




təşkilatçılığı ilə “31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü”nə həsr olunmuş tələbələr arasında stolüstü tennis turniri keçirilib. Turnirdə Azərbaycan Tibb Universitetinin tələbələri ilə yanaşı, Azərbaycan Dövlət İqtisad Univarsitetinin (UNEC) tələbələri də olmaqla 31 oğlan və 9 qız iştirak edib. Sonda qaliblər Bakı Şəhər Gənclər və İdman İdarəsinin təsis etdiyi medal, diplom və kuboklarla mükafatlandırılıb.




**Dekabrın 15-də** Fövqəladə Hallar Nazirliyinin İdman Sağlamlıq Mərkəzində Gənclər və İdman Nazirliyi və Azərbaycan Karate Federasiyasının birgə təşkilatçılığı ilə full kontakt karate üzrə ölkə birinciliyi və çempionatı keçirilib**.** Çempionatda paytaxt Bakı ilə yanaşı, ölkənin müxtəlif regionlarından olan 300 idmançı iştirak edib. Azərbaycan Tibb Universitetinin “Təbib” idman klubunun karate bölməsində məşğul olan 5 nəfər tələbə-idmançı peşəkar idmançılar arasında keçirilən bu çempionatda öz güclərini sınayıb. Qaliblər Gənclər və İdman Nazirliyinin təsis etdiyi medal və diplomla təltif olunub.




**Dekabrın 21-də** ali məktəb tələbələri arasında “31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü”nə həsr olunmuş voleybol (qızlar) yarışı keçirilib.



ATU-nun “Təbib” idman klubu və Bakı şəhəri Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə 5 komandanın yarışdığı turnirdə ATU iki komanda ilə çıxış edib. ATU-1 komandası I, ATU-2 komandası III yerə çıxıb. Tədbirin sonunda qalib komandalar və komandaların üzvləri mükafatlandırılıb. Eyni zamanda 2023-2024-cü tədris ilində ATU-nun “Təbib” Tədris İdman Mərkəzində keçirilən mədəni-kütləvi və idman tədbirlərinin keçirilməsində fəal iştiraklarına görə məşqçi-müəllimlərə Gənclər və İdman Nazirliyinin xüsusi təşəkkürnamələri təqdim olunub.



ATU-nun Tədris İdman Kompleksində “Təbib” idman klubu və Bakı şəhəri Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə ali təhsil müəssisələrinin professor-müəllim heyəti arasında şahmat və stolüstü tennis üzrə Nəsimi rayon turniri keçirilib. Fevralın 14-də Azərbaycan Tibb Universitetinin Tədris İdman Kompleksində hər iki turnirdə qalib gələn əməkdaşların mükafatlandırılması mərasimi baş tutub. Tədbirin sonunda turnirin qalibləri elan edilib və mükafatlandırılıb. Qaliblərə kuboklar və diplomlar təqdim olunub.




**Martın 1-də Azərbaycan** Tibb Universitetinin Tədris İdman Kompleksində Bakı şəhər Gənclər və İdman İdarəsinin Nəsimi rayon gənclər və idman sektoru və ATU-nun “Təbib” idman klubunun birgə təşkilatçılığı ilə ali təhsil müəssisələrinin tələbələri arasında 5 mart - Bədən Tərbiyəsi və İdman Gününə həsr olunmuş dama (oğlanlar və qızlar) və 3x3 basketbol (oğlanlar) üzrə yarışlar keçirilib.

Yarışların bağlanış mərasimində Nəsimi Rayon İcra Hakimiyyətinin nümayəndələri Rauf İsgəndərov və Emin Hüseynov, Bakı şəhər Gənclər və İdman İdarəsinin baş məsləhətçisi Sirac Axundov və ATU “Təbib” idman klubunun sədri Qələndər Aslanov qalibləri kubok, medal və diplomlarla təltif edib, onlara növbəti yarışlarda uğurlar arzulayıblar. Tədbir xatirə şəkillərinin çəkilməsi ilə yekunlaşıb.



**Aprelin 29-da** Azərbaycan Tibb Universitetinin “Təbib” Tədris İdman Mərkəzi və Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin birgə təşkilatçılığı ilə “Sağlam həyat” səyyar layihəsi çərçivəsində universitetin 95 illik yubileyinə həsr olunmuş idman festivalı keçirili. Festivalın əsas məqsədi tələbələr və universitet əməkdaşları arasında sağlam həyat tərzinin təbliği, kütləvi bədən tərbiyəsinin təşviqi və idmanın gündəlik həyata inteqrasiyasına dəstək vermək olub. Tədbirdə universitetin 500-ə yaxın tələbə və əməkdaşı iştirak edib. Festivalın sonunda uğurla iştirak edən 145 nəfər Gənclər və İdman Nazirliyinin sertifikatları ilə təltif olunub.



Azərbaycan Tibb Universitetinin “Təbib” Tədris İdman Mərkəzinin və Bakı Şəhər Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə Ulu Öndər Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş ali təhsil müəssisələrinin tələbələri (oğlanlar) arasında voleybol turniri keçirilib



**Aprelin 26-dan** start götürən yarışda 10 ali təhsil müəssisəsindən (ATU, ADA, BDU, BMU, BANM, AzTU, UNEC, Xəzər və Qərbi Kaspi universitetləri, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialı) 88 tələbə iştirak edib. Yarışın final oyunu mayın 7-də baş tutub və qaliblər müəyyənləşib. Gərgin və maraqlı mübarizə şəraitində keçən turnirdə UNEC komandası 1-ci, AzTU komandası 2-ci, ATU komandası isə 3-cü yerlərə layiq görülüb. Sonda qaliblərə diplom və kuboklar təqdim olunub.

## ATU-NUN TƏLƏBƏLƏRİ BAKI MARAFONUNDA REKORD VURUB




**Mayın 4-də** ənənəvi olaraq Heydər Əliyev Fondunun təşəbbüsü ilə “Bakı Marafonu-2025” adlı beynəlxalq tədbir keçirilib.

Azərbaycan Tibb Universiteti bu il marafonda rekord sayda – 477 nəfərlə təmsil olunub. ATU-dan 62 nəfər 21 kilometrlik məsafəni ilk 2000 iştirakçı arasında başa vuraraq medal və sertifikatla təltif olunub. Medal qazananlar arasında yerli tələbələrlə yanaşı, Türkiyə, Türkmənistan, İordaniya, Sudan, Yəmən, Nigeriya, Hindistan, İran, Suriya, İraq, Zambivya, Honduras, Uqanda, Pakistan və Fələstin vətəndaşı olan əcnəbi tələbələrimiz də var. Bundan başqa, 113 tələbə müəyyən vaxtlar təyin olunmuş məsafəni qaçaraq sertifikat əldə edib”.

**Mayın 24-də** Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi ilə ATU-nun “Təbib” Tədris İdman Mərkəzinin birgə təşkilatçılığı ilə Azərbaycan Tibb Universitetinin (ATU) əcnəbi tələbələri arasında “28 May – Müstəqillik günü”nə həsr olunmuş stolüstü tennis turniri keçirilib. Tədris İdman Mərkəzində baş tutan turnirdə Türkiyə, İran İslam Respublikası, Hindistan, Suriya, Fələstin, Zambiya, Sudan, Rusiya Federasiyası, Keniya, Mərakeş, Mali, Pakistan və Qazaxstandan universitetdə təhsil alan 12 qız və 39 oğlan tələbə iştirak edib.




Sonda qaliblər diplom, medal və kuboklarla, aktiv tələbələr isə xüsusi sertifikatlarla təltif olunub.